AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
İQTİSADİ ARAŞDIRMALAR ELMİ-TƏDQİQAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**ANAR CÜMŞÜD OĞLU VƏLİYEV**

# KORPORATİV İDARƏETMƏ VƏ İŞGÜZAR TƏŞKİLATLARIN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

**İxtisas:** 5304.01 - İqtisadi fəaliyyət növləri

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2013**



Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin «Menecment» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** - iqtisad elmləri doktoru
**Heydər Sərdar oğlu Həsənov**

**Rəsmi opponentlər:** - iqtisad elmləri doktoru, professor
**Mübariz Məmmədhüseyn oğlu Bağırov**

- iqtisad elmləri namizədi, dosent
**İsmayıl Cəfər oğlu Həsənov**

**Aparıcı təşkilat**: Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Müdafiə 24 yanvar 2014 - cü il saat $15^{00}$-da Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində İqtisadi Araşdırmalar Elmi –Tədqiqat İnstitutunda elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.052 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadi Araşdırmalar Elmi –Tədqiqat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtorefarat 23 dekabr 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi, i.e.n., dosent** **N. M. İsmayılov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

***Mövzunun aktuallığı***. Azərbaycan iqtisadiyyatı dayanıqlı inkişaf mərhələsindədir. Dayanıqlı inkişaf yeni adaptiv mexanizmlərin üzə çıxarılmasını zəruri edir. Dövlət mülkiyyətinin özəlləşdirilməsi və çoxlu sayda xüsusi mülkiyyətçilərin yaranması avtomatik şəkildə istehsalın səmərəliliyini və rəqabətqabiliyyətliliyini yüksəltməmişdir. Xüsusi mülkiyyətçilərin necə sahibkar olmaları və bizneslərini necə idarəetmələri isə artıq onların sahibkar və menecer keyfiyyətlərindən asılıdır. İstehsalın səmərəliliyi ilə ölkədə fəaliyyət göstərən işgüzar təşkilatların menecmenti arasında düz mütənasiblik əlaqəsi var: işgüzar təşkilatların səmərəliliyi və rəqabətqabiliyyətliliyi onun kimin mülkiyyətində olmasında deyil, daha çox menecmentin təşkili ilə bağlıdır. Müasir biznesdə hər şeyi səmərəli menecer həll edir. Səmərəli menecer kimi isə mülkiyyətçinin özü də və ya muzdlu şəkildə tutulmuş şəxs də çıxış edə bilər. Deməli, iqtisadiyyatın inkişafı müəssisələrin əmlakının kimin mülkiyyətində olmasından daha çox onları idarə edənlərdə sahibkarlıq duyumunun necə olması və hansı menecment sisteminə üstünlük verməsindən asılıdır. Yalnız ayrı- ayrı işgüzar təşkilatlardakı menecment dayanıqlı və davamlı iqtisadi inkişafın təminatçısı kimi çıxış edə bilər.

Müasir qlobal iqtisadiyyatda mülkiyyət münasibətləri ilə biznesin idarə edilməsi arasında körpü rolunu korporativ idarəetmə oynayır. Mütərəqqi institusional dəyişmələr yeni yanaşmaların və mexanizmlərin təşəkkülünü və istifadəsini zəruri edir. Korporativ idarəetmə artıq iqtisadi kateqoriyadan kənara çıxaraq, cəmiyyətdə normal sosial münasibətlərin qurulmasının təməli rolunu oynayır. Onun formalaşması və təkamülü isə bütünlüklə sahibkarlığı yeni keyfiyyətlər üzrə təkmilləşdirir.

Səhmdar cəmiyyətlərinin uğurlu inkişafı mülkiyyətçilərdən və ali menecmentdən biznesin idarə edilməsinin səmərəli alət və mexanizmlərinin işlənməsini, səhmdarların maraqlarının razılaşdırılmasını və bütün maraqlı tərəflərlə pozitiv münasibətlərin qurulmasını tələb edir.

Təhlil göstərir ki, yerli biznes strukturlarında asan və tez nail olunan məqsədlərə hədəflənən ənənəvi və bəsit idarəetmə qərarlarından istifadəyə üstünlük verilir. Korporativ idarəetmə zəif inkişaf etdiyindən ayrı-ayrı səhmdar qruplarının maraqları zəif təmin olunur və inteqrativ korporativ kapitalın formalaşması layihələri demək olar ki, istifadə edilmir. Məhz bu baxımdan korporativ idarəetmənin yerli şəraitdə təşəkkülü, fəaliyyəti və inkişafı problemlərinin araşdırılması böyük



elmi-praktiki əhəmiyyət kəsb edir və bu səbəbdən aktual xarakter daşıyır.

***Problemin öyrənilmə səviyyəsi***. Azərbaycanda sahibkarlığın inkişaf istiqamətlərini, təşkilati-hüquqi formalarını, biznes-sahibkarlıq strukturlarının fəaliyyət mexanizmi, rəqabət və inhisar məsələləri Ş.H.Hacıyev, Ə.İ.Bayramov, R.T.Həsənov, M.M.Bağırov, T.Ə.Hüseynov, K.A.Şahbazov, A.A.Şəkərəliyev, Z.F.Məmmədov, M.X.Meybullayev, E.M.Hacızadə, Ə.Q.Əlirzayev, H.S.Həsənov və digər alimlərin əsərlərində tədqiq olunmuşdur. Bununla bərabər Azərbaycan şəraitində korporativ idarəetmənin və korporativ biznesin təşəkkülü və inkişafının müasir mərhələsi cəmiyyətdə baş verən köklü keyfiyyət dəyişiklikləri, o cümlədən qloballaşmanın təsiri nəzərə alınmaqla araşdırılmamışdır. Bu istiqamətdə görünən boşluqların aradan qaldırılması korporativ idarəetmənin nəzəri və praktiki tərəflərinin öyrənilməsini əhəmiyyətli dərəcədə aktuallaşdırır.

İlk olaraq korporasiyaların və korporativ idarəetmənin iqtisadi təbiəti haqqında araşdırmaları A.Berli, H.Minz, D.Nort və R.Larner aparmışlar. İşgüzar təşkilatların rəqabətqabiliyyətliliyi və rəqabət üstünlüyü məsələlərini isə M.Porter P.Druker, İ.Ansoff, B.Karlof, D.Reçmen, M.Meskon, L.Boyvi, D.Till, H.Minsberq, D.Lempel, B.Alstrend, A.Tompson, D.Striklend, D.Aker, A.Xoskinq və başqaları səmərəli şəkildə araşdırmışlar.

Bu səpkili araşdırmaları MDB məkanında C.Qlazyev, D. Kruq, E.Lenski, B.Rennikova, A.Babaşkin, A.Qorbunov, S.Şumşilov, L.Kaçalina, B.Dementyev, A.Dementyeva, D.Livov, A.Dınkin, L.Volodin, R.Fatxutdinov, O.Vixanski və digərləri etmişlər.

***İşin məqsədi və vəzifələri.*** Tədqiqatın məqsədi sosial-iqtisadi inkişafın yeni reallıqlarını nəzərə almaqla korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi əsasında işgüzar təşkilatların və bütünlüklə ölkənin rəqabətqabiliyyətliliyini gücləndirmək üçün nəzəri və praktiki təkliflər hazırlamaqdan ibarətdir. Bununla əlaqədar olaraq, tədqiqatda aşağıdakı konkret vəzifələrin həll edilməsi nəzərdə tutulmuşdur:

- korporativ idarəetmənin tətbiqi əsasında işgüzar təşkilatın rəqabətqabiliyyətliliyinin gücləndirilməsinin nəzəri məsələlərini tədqiq etmək;
- müasir işgüzar təşkilatların rəqabətqabiliyyətliliyinin əsas əlamətlərini və çalarlarını üzə çıxarmaq;
- korporativ idarəetmənin sosial-iqtisadi anlayış kimi geniş

aspektdə ictimai münasibətləri özündə əks etdirilməsini, prinsiplərini və modellərini araşdırmaq;

- korporativ münasibətlər subyektlərinin hüquqlarının qorunması və şəffaflıq məsələlərini araşdırmaq;
- ölkə iqtisadiyyatının transformasiyası konturlarının korporativ strukturlarının formalaşması prizmasından qiymətləndirmək;
- korporativ biznes modelinin təşəkkülünün başlıca xüsusiyyətlərinin empirik qiymətləndirilməsini həyata keçirmək və işgüzar təşkilatlarda korporativ idarəetmənin mövcud vəziyyətini və inkişaf təmayüllərini müəyyənləşdirmək;
- korporasiyaların divident siyasətinin əsas cəhətlərini qiymətləndirmək;
- işgüzar təşkilatlarda korporativ strategiyaların işlənməsi və istifadəsini araşdırmaq;
- korporativ davranışın etik aspektlərinin gücləndirilməsi yollarını müəyyənləşdirmək.

***Tədqiqatın obyekti kimi*** Azərbaycan iqtisadiyyatında fəaliyyət göstərən korporativ strukturlar götürülmüşdür.

***Tədqiqatın predmeti.*** İşgüzar təşkilatların rəqabətqabiliyyətliliyinin gücləndirilməsində mükəmməl korporativ idarəetmə sisteminin yaradılmasının mexanizmləri, alətləri və üsulları təşkil edir.

***İşin nəzəri-metodoloji əsasını*** korporativ idarəetmənin təşkili, fəaliyyəti və tənzimlənməsi sahəsində müasir menecmentin və iqtisad elminin nəzəriyyə və təcrübəsinin fundamental müddəaları, korporativ idarəetmə haqqında *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı* tərəfindən işlənilib hazırlanmış və təsdiqlənmiş sənədlər, Azərbaycan Respublikası Mülki Məcəlləsi, respublikamızda və digər postsovet ölkələrində sosial-iqtisadi islahatların aparılmasına dair müvafiq qanunvericilik və digər normativ aktları təşkil edir. Elmi araşdırmada kompleks təhlil, müqayisə, monitorinq, ekspert qiymətləndirilməsi, məntiq, tarixi yanaşma, statistik metodlar tətbiq edilmişdir.

Dissertasiya işinin konsepsiyası müəllifin elmi mövqeyinə arxalanmaqla formalaşdırılmışdır. Bu mövqe ondan ibarətdir ki, biznesdə uğurqazanma heç də müəssisənin kimin mülkiyyətində olması həll etmir, əsas məsələ biznesin kimlər tərəfindən və necə idarə edilməsindədir, yəni biznesdə çox məsələ effektiv menecment sisteminin qurulmasından asılıdır və korporativ idarəetmə mülkiyyətçilərlə menecerlər arasında ötürücü mexanizm rolunu oynayır.



***Tədqiqatın informasiya bazasını*** Prezidentin sərəncamları, hökumətin qərarları, Milli Məclisin qəbul etdiyi qanun və normativ aktları, Azərbaycan Dövlət Statistika Komitəsinin, İqtisadiyyat və Sənaye, Maliyyə, Vergilər Nazirliklərinin, Dünya Bankı, Beynəlxalq Valyuta Fondunun, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının materialları, habelə ölkədə fəaliyyət göstərən ayrı-ayrı korporasiya və bankların məlumatları və hesabatları təşkil edir.

***Tədqiqatın elmi yeniliyi*** ondan ibarətdir ki, Azərbaycan gerçəkliyində ayrı-ayrı işgüzar təşkilatların rəqabətqabiliyyətliliyinin yüksəldilməsində korporativ idarəetmənin rolu qiymətləndirilmişdir.

Tədqiqat işinin əsas elmi yeniliyi aşağıdakılardan ibarət olmuşdur:

- işgüzar təşkilatın rəqabətqabiliyyətliliyi ilə korporativ idarəetmənin funksional bağlılığının nəzəri əsasları araşdırılmışdır;
- işgüzar təşkilatların rəqabətqabiliyyətliliyinin şərtləri və perspektivləri dəqiqləşdirilmişdir;
- korporativ münasibətlər subyektlərinin hüquqlarının qorunması və şəffaflıq korporativ idarəetmənin əsas atributları kimi əsaslandırılmışdır;
- ölkədə korporativ biznes modelinin təşəkkülünün başlıca xüsusiyyətlərinin empirik qiymətləndirilməsi həyata keçirilmişdir;
- yerli korporasiyalarda və banklarda korporativ idarəetmənin mövcud vəziyyəti və inkişaf təmayülləri müəyyənləşdirilmişdir;
- yerli korporasiyaların divident siyasətinin qabaqcıl beynəlxalq təcrübənin tətbiqi əsasında təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
- işgüzar təşkilatlarda korporativ strategiyaların işlənməsi istiqamətləri və istifadəsi tədqiq edilmişdir;
- korporativ mədəniyyətin müasir cəmiyyətin yeni çağırışlarına uyğunlaşdırılması məsələləri və korporativ davranışın etik aspektlərinin gücləndirilməsi yolları göstərilmişdir.

***Tədqiqatın nəzəri əhəmiyyəti*** onunla izah olunur ki, aparılan sistemləşmələr, ümumiləşmələr və konseptual yanaşmalar korporativ idarəetmənin iqtisadi mahiyyətini dərk etməyə və onların korporasiyalar üzrə əsaslandırılmış tədbirlər hazırlamağa imkan verir.

***Tədqiqatın təcrübi əhəmiyyəti.*** Dissertasiya işində ölkənin rəqabətqabiliyyətliliyinin artırılmasında korporativ idarəetmənin yeri və rolunun müəyyənləşdirilməsi tədqiqatın praktiki əhəmiyyətə malik

olmasına dəlalət edir. Aparılan araşdırmalar nəticəsində irəli sürülən təklif və tövsiyələrin ünvanlı xarakter daşıması onların tətbiq edilmə imkanlarını daha da genişləndirir. Dissertasiyanın nəzəri-metodoloji materialları "Korporativ idarəetmə", "Korporativ mədəniyyət", "Menecment", "Strateji idarəetmə", "Biznesin əsasları", "Sahibkarlıq fəaliyyəti" və s. fənlərin tədrisində istifadə oluna bilər.

***Tədqiqatın nəticələrinin tətbiqi***. Dissertasiya işinin əsas mahiyyəti, burada irəli sürülən nəzəri-metodoloji və əməli xarakterli mülahizələr, təkliflər, tövsiyələrlə bağlı müəllif Gənc Alimlərin I Respublika İnnovativ İdeya Yarmarkası, Azərbaycan Kommersiya Banklarında Korporativ idarəetmənin yeri və rolu. (Bakı 2010-cu il); Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası, Korporativ strategiyanın hazırlanması xüsusiyyətləri (Bakı, 2012-ci il); Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi mövzusunda Beynəlxalq elmi–praktiki konfransın materialları. Təşkilatlarda korporativ mədəniyyətin yüksəldilməsi istiqamətləri (Bakı, 2012-ci il) mövzularına həsr olunmuş elmi-praktiki konfranslarda məruzə etmişdir. Elmi tədqiqatın əsas nəticələri və elmi-praktiki tövsiyələri Unibank ASC-də (21 noyabr 2013-cü il) istifadə üçün qəbul edilmiş və tətbiq edilmişdir.

***İşin həcmi və quruluşu.*** Elmi iş giriş, 8 paraqrafı birləşdirən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 147 səhifə həcmindədir. Dissertasiyada 15 cədvəl və 5 şəkil verilmişdir. Ədəbiyyat siyahısında Azərbaycan, rus, ingilis dillərində olan 114 adda ədəbiyyat və internet səhifəsi göstərilmişdir.

## İşin planı


**Giriş.**

**I fəsil. İşgüzar təşkilatın rəqabətqabiliyyətliliyi ilə korporativ idarəetmənin funksional bağlılığının nəzəri əsasları**

1.1. Müasir işgüzar təşkilatların rəqabətqabiliyyətliliyinin şərtləri.

1.2. Korporativ idarəetmənin nəzəri əsasları, prinsipləri və modelləri.

1.3. Korporativ münasibətlər subyektlərinin hüquqlarının qorunması və şəffaflıq məsələləri.

**II fəsil. Ölkədə korporativ idarəetmənin əsas cəhətləri, vasitələri və strategiyasının işlənmə mexanizmi**





2.1. İşgüzar təşkilatlarında korporativ idarəetmənin mövcud vəziyyətinin və inkişaf təmayüllərinin təhlili.

2.2. Şirkətin divident siyasəti - korporativ idarəetmə sisteminin əsas aləti kimi.

2.3. İşgüzar təşkilatlarda korporativ strategiyalarının işlənməsi və istifadəsinin tədqiqi.

**III fəsil. Korporativ mədəniyyətin möhkəmləndirilməsi əsasında işgüzar təşkilatların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yolları**

3.1. Korporativ mədəniyyətin müasir cəmiyyətin yeni çağırışlarına uyğunlaşdırılması məsələləri.

3.2. Korporativ davranışın etik aspektlərinin gücləndirilməsi yolları.

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

### 1.İşgüzar təşkilatın rəqabətqabiliyyətliliyi ilə korporativ idarəetmənin funksional bağlılığının nəzəri əsasları.

Çağdaş makroiqtisadiyyata xarakterik olan qloballaşma prosesi birbaşa mikroiqtisadi sistemlərin, yəni ayrı-ayrı işgüzar təşkilatların fəaliyyətinə təsir göstərir. Bu və ya digər işgüzar təşkilatın rəqabət mübarisəzində uğurunu qabaqcıl innovasiyaların yaradılması, yayılması və istifadəsi şərtləndirir. Deməli, iqtisadiyyatın inkişafının müasir mərhələsində intellektual fəaliyyətin nəticəsi rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin əsası kimi çıxış edir, müəssisənin aktivlərinin strukturunda isə intellektual kapital dominantlıq etməyə başlayır. İşgüzar təşkilatın uğurunu müəyyən edən digər şərtlər qrupuna isə korporativ idarətemə, mükəmməl menecment və təşkilati mədəniyyətlə bağlı olan amillər daxildir.

Müəssisənin rəqabətqabiliyyətliliyi nisbi anlayışdır: eyni işgüzar təşkilat ölkə və ya regionun müəyyən iqtisadi sahəsində rəqabətqabiliyyətli, dünya və ya onun ayrıca seqmenti səviyyəsində isə rəqabətqabiliyyətli sayıla bilməz. Rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi, yəni müəssisənin digər müəssisələrə nisbətən rəqabət üstünlü-

yünün müəyyən olunması üçün ilk növbədə müqayisənin baza obyektlərini, yəni sahə və ya ondan kənarda lider-müəssisəni seçmək lazımdır. Rəqabətqabiliyyətlik – işgüzar təşkilata stabil artım verməklə istehlakçıların ehtiyac və tələbatlarının ödənilməsini təmin edən bacarıqdır.

Rəqabət üstünlüyü – digər rəqiblərə nisbətən işgüzar təşkilata imtiyaz verən əmtəə və ya əmtəə markasının müstəsna rəmzidir. Müstəsna rəmzlər məhsul və xidmətə, lazımi və əlavə xidmətlərə, istehsalın təşkilinə, təchizatın və satışın forma və metodlarına aiddir.

Hakim bacarıqlar elə məharətlər dəstidir ki, onun köməyi ilə məhdud resurslar səmərəli və qeyri-adi qaydada birləşdirilir. Onların vasitəsilə resursların uğurlu kombinasiyasına nail olunur və digər müəssisələrin istehsal olunan məhsul və xidmətlərin dəyəri və faydalılığı heçə endirilir. Deməli, bu şərti həmişə real rəqabət mübarizəsində nəzərə almaq lazımdır. Hakim bacarıqlar uzun perspektivə istiqamətlənməlidir. Əgər hakim bacarıqlar az müddətə istiqamətlənibsə və rəqabət mübarizəsində üstünlük vermirsə, onda onlardan heç bir fayda əldə etmək olmaz. Nəzərə almaq lazımdır ki, hakim bacarıqlar sabit şəkildə və uzun müddət müəssisəyə rəqabət üstünlüyü verməli və bazar rəqiblərinə münasibətdə əlverişli və adekvat mövqe tutmağa imkan yaratmalıdır.

Nəzəri cəhətdən, bütün mücərrəd və fiziki aktivlər hakim bacarıqlara keçə bilər. Məhsuldar və yüksək ixtisaslaşmış maşın və avadanlıqlar, təşkilati və texnoloji proseslər, müxtəlif səpkili məlumatlar, patentlər, nou-haular, sənaye mülkiyyəti, lisenziyalar, işçi heyətin ixtisas səviyyəsi və bilikləri, xarici mühitdə işgüzar tərəfdaşlarla, investorlarla, yerli əhali və dövlət orqanları ilə xüsusi əlaqələr, müəssisənin imici, bazarda və cəmiyyətdə onun məhsulunun nüfuzu və s. buraya daxil etmək olar. Qeyri-məhdud şəkildə olan bu elementlərin seçim sərgisi genişdir və hakim bacarıqları müəyyən edə bilərlər.

**2.Korporativ idarəetmənin sosial-iqtisadi anlayış kimi geniş aspektdə ictimai münasibətləri özündə əks etdirilməsinin müəyyənləşdirilməsi.**

Korporativ idarəetmə problemləri iqtisadi dairələrdə ötən əsrin 30-cu illərindən başlayaraq geniş şəkildə araşdırılmağa başlanmışdır. Onun mahiyyətini göstərmək üçün korporativ idarəetmənin əsas prinsipi izah edilməlidir: mülkiyyət əsasında nəzarət müəyyən olunur, nəzarətin səviyyəsi isə şirkətin səhmlərinə yatırılan sərmayənin miqdarından



asılıdır. Mülkiyyətçinin əsas hüququ "bir səhm - bir səs" düsturu ilə formalaşır. Deməli, demək olar ki, mövcud olan səhmdar hüququnu korporativ idarəetmə konsepsiyası əks etdirir. Səhmdar cəmiyyətinin ali idarəedicisi rolunda konkret səhmdar çıxış edir. Səhmdarlar səhmdarların ümumi yığıncağı qismində səhmdar cəmiyyətini idarə etməsələr o, fəaliyyət göstərə bilməz. Korporativ idarəetməyə dair son illərin tədqiqatları nəticəsində müəyyən olunmuşdur ki, bu sahədə "birgə iştirakçılar" (stakeholders theory) və "agent" (agensy theory) nəzəriyyələri dominantlıq təşkil edir.

"Birgə iştirakçılar" (stakeholders theory) bəzi vaxtlar korporasiya ilə cəmiyyətin maraqlarının üst-üstə düşmədiyi nəzəriyyəsi də adlandırırlar. İri həcmdə mənfəət gətirən, yeni texnologiyaları mənimsəyən, təkcə iqtisadi həyatı deyil, həm də siyasi həyatı müəyyənləşdirən korporasiya praktiki olaraq heç kimə hesabat vermir və öz hərəkətlərində heç kəsin maraqlarını nəzərə almır. Bu nəzəriyyəyə görə korporasiya yalnız öz səhmdarlarının, əməkdaşlarının, müştərilərinin tədarükçülərin və digər maraqlı şəxlərin yanında bir sıra vəzifələri vardır. Korporasiyanın rəhbərliyi bu maraqlı tərəflərin nəzarətində ola bilər.

"Agent" (agensy theory) nəzəriyyəsi isə korporativ münasibətlər mexanizmini agent xərcləri prizmasından araşdırır. Bu nəzəriyyəyə görə kapitalın mülkiyyətçiləri ilə bu kapitalı idarə edən agentlərin maraqları üst-üstə düşmür. Biznesin uğurlu olmasında maraqlı olsalar da onların qrup maraqları fərqlidir.

Korporativ idarəetmə nəzəriyyələrinin fərqli olmalarına baxmayaraq qeyd etmək lazımdır ki, korporativ münasibətlər səhmdarların, Direktorlar Şurasının, menecerlərin və digər maraqlı şəxslərin maraqlarının uzlaşdırılmasına yönəlmişdir. İnvestisiya qərarlarının qəbulunda da korporativ idarəetmə müstəsna rol oynayır. Belə ki, əksər investorlar məhz yaxşı korporativ idarəetməyə malik şirkətin səhmlərinə sahib olmağa can atırlar. Korporativ idarəetmənin effektli sisteminin yaradılmasında üç əsas üstünlük var: sərmayələrin cəlb edilməsi imkanı, şirkətin səmərəliliyinin artması və kapitalın qiymətinin azalması.

**3. Korporativ münasibətlər subyektlərinin hüquqlarının qorunması və şəffaflıq məsələlərinə geniş yer verilir.**

Hazırkı şəraitdə korporativ idarəetmənin ciddi problemlərindən biri kütləvi şəkildə xırda (minaritar) səhmdarların hüquqlarının pozulmasıdır. Buna səbəb isə ölkədə səhm zərflərinin konsolidasiyası

prosesinin güclənməsi və səhmdar kapitalının artırılması yolu ilə kənar səhmdarlardan azad olmaqdır. Bu xırda səhmdarların hüquqlarının pozulması ilə baş verir. Çünki, onlar əlavə səhm zərflərinin yerləşdirilməsi qərarının əksinə çıxa bilmirlər. Nəticədə səhm kapitalında xırda səhmdarların səhm zərflərinin payı və bazar dəyəri azalır. Qeyd etmək lazımdır ki, səhmdar cəmiyyətlərinin ümumi yığıncağının keçirilməsi təcrübəsi çoxlu sayda səhmdarlara şirkətin idarə edilməsi üzrə öz hüquqlarını səmərəli şəkildə reallaşdırmaq imkanı vermir. Dissertasiyada göstərilir ki, çox zaman səhmdar cəmiyyətlərinin ümumi yığıncağının keçirilməsi üzrə qanunvericilik tərəfindən müəyyən olunmuş tələblər yerinə yetirilmir. Hər şeydən əvvəl:

- səhmdar cəmiyyətlərinin ümumi yığıncağının keçirilməsi vaxtı səhmdarlara gec çatdırılır;
- ümumi yığıncağın gündəlik məsələləri haqqında səhmdarlara informasiya verilmir, ya da gündəlik məsələlər qanunvericiliklə ziddiyyət təşkil edir;
- səhmdarların ümumi yığıncağının bu və ya digər gündəlik məsələsi üzrə qərarın qəbul edilməsinə zəruri olan informasiya səhmdarlara çatdırılmır;
- səhmdarların ümumi yığıncağının keçirilməsi prosedura uyğun aparılmır (hesablama komissiyası yaradılmır, səsvermə bülletenlərinin forması gözlənilmir və s.);
- səsvermədə və səslərin sayılmasında səhmdarların hüquqları (əsasən imtiyazlı səhmlərin sahiblərinin hüquqları, bu səhmlər üzrə səsvermə hüququ müəyyən olunan hallarda) pozulur;
- vəkalətnamə üzrə səsvermənin dəqiq prosedurun olmaması. Bəzi hallarda səhmdarların ümumi yığıncağına səhmdarların əvəzinə vəkalətnamə əsasında onların nümayəndələrinin iştirakına maneələr yaradılır. Təcrübədə səhmdarları (daha çox müəssisənin əməkdaşları olan və ya minaritar səhmdarları) səsvermə hüquqlarını şirkətin bu və ya digər rəhbərinə verilməsi üçün vəkalətnamə yazmağa məcburetmə geniş yayılmışdır.

Araşdırmalar göstərir ki, ölkəmizdə 2011-ci ildə səhmdarların ümumi yığıncağını çağırmayan ASC-lərə "Qaradağ Tikinti Materialları", "Qaradağ Tikinti Quraşdırma", "Qaradağ Sənaye Kombinatı", "Səbail Mətbəə-1", "Ə.Ansuxski adına Balakən Konserv Zavodu", "Ucar Dəmir Beton Məmulatları Zavodu", "Şəmkir Şampan Şərabları", "Mingəçevir Xırda Topdansatış", "Mərdəkan Broyler", "Siyəzən Broyler", "Astara



Çay-3", "Qəbələ Quşçuluq", "Mingəçevir Qum Çınqıl", "Bakı Körpü Tunel", , "Siyəzən Broyler", "Bakı Broyler-2", "Bakı Ayaqqabı-2", "Azinşaat Sənaye", "Azərboru", "Bərdə Qum-Çınqıl", "Sumqayıt Trikotaj", "Azərenerjitikintiquraşdırma", "Bakı Nəqliyyat Tikiti Dəmir-Beton" və s. aid etmək olar.

Səhmdar cəmiyyəti ilə səhmdarlar arasında normal münasibətlərin qurulması üçün:

1. Səhmdar cəmiyyətinin fəaliyyəti haqqında səhmdarların vaxtında məlumat almaq hüququ olmalıdır;
2. Səhmdarların emitentin (səhmdar cəmiyyətinin) idarə edilməsində iştirak hüququ olmalıdır;
3. Cəmiyyətin idarə edilməsinə səhmdarların nəzarətetmə hüququ olmalıdır;
4. Emitent öz hərəkətləri ilə səhmdarların hüquqlarını pozmamalıdır;
5. Səhmdarların səhmlərinə görə mülkiyyət hüququna təminatı olmalıdır.

Lakin nəzərə almaq lazımdır ki, səhmdarların hüquqlarının qorunması daha çox emitentin xoş məramından asılıdır. Onu inandırmaq lazımdır ki, səhmdarların hüquqlarının qorunması biznesin etikasının tərkib hissəsidir və ona riayət etməklə şirkət öz imicinə işləyir.

**4.Korporativ biznes modelinin təşəkkülünün başlıca xüsusiyyətlərinin empirik qiymətləndirilməsini həyata keçirmək və işgüzar təşkilatlarda korporativ idarəetmənin mövcud vəziyyətini və inkişaf təmayüllərini müəyyənləşdirmək.**

Ölkəmizdə korporativ idarəetmənin normativ bazası XX əsrin sonlarında yaradılmağa başlamışdır.

Azərbaycanda korporativ idarəetmənin inkişaf etdirilməsində mühüm yeri korporativ idarəetmə layihəsinin həyata keçirilməsidir. Bu layihə Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin dəstəyi ilə reallaşmışdır. Azərbaycanda korporativ idarəetmə əsasən ötən əsrin sonlarından səhmdar cəmiyyətlərində tətbiq olunmağa başlamışdır. Səhmdar cəmiyyətləri ayrı-ayrı fiziki və hüquqi şəxslərin sərmayələrini birləşdirməklə və dövlət müəssisələrinin özəlləşdirilməsi yolu ilə yaranır.

*Cədvəl 1*

***Səhmdar cəmiyyətlərinin sayı (ilin sonuna)***

| Fəaliyyət növləri | 1997 | 2000 | 2001 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **755** | **950** | **1168** | **1565** | **1652** | **1714** | **1789** |
| o cümlədən: | | | | | | | |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 37 | 34 | 45 | 81 | 88 | 93 | 99 |
| Balıqçılıq, balıqyetişdirmə | 0 | 0 | 0 | 12 | 14 | 14 | 15 |
| Mədənçıxarma sənayesi | 6 | 6 | 13 | 23 | 24 | 24 | 24 |
| Emal sənayesi | 189 | 230 | 310 | 476 | 491 | 500 | 510 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 2 | 6 | 8 | 10 | 13 | 14 | 9 |
| Tikinti | 70 | 120 | 151 | 218 | 223 | 226 | 250 |
| Topdan və pərakəndə ticarət; avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 121 | 205 | 232 | 272 | 306 | 316 | 316 |
| Mehmanxana və restoranlarla xidmətin göstərilməsi | 8 | 24 | 28 | 41 | 43 | 43 | 44 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 82 | 103 | 130 | 169 | 178 | 181 | 183 |
| Maliyyə fəaliyyəti | 119 | 129 | 135 | 104 | 107 | 125 | 133 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 70 | 45 | 53 | 84 | 89 | 97 | 110 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminatın vəzifələri | 4 | 3 | 3 | 8 | 9 | 10 | 8 |
| Təhsil | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 5 | 3 | 5 | 4 | 4 | 5 | 4 |
| Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi | 41 | 41 | 54 | 62 | 62 | 65 | 83 |



***Cədvəl 1-in ardı***

| *Fəaliyyət növləri* | *2009* | *2010* | *2011* |
|---|---|---|---|
| **Cəmi** | **1846** | **1860** | **1650** |
| o cümlədən: | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 119 | 124 | 118 |
| Mədənçıxarma sənayesi | 24 | 24 | 25 |
| Emal sənayesi | 510 | 516 | 490 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 9 | 9 | 9 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 8 | 9 | 8 |
| Tikinti | 260 | 260 | 239 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 317 | 314 | 226 |
| Nəqliyyat və anbar təsərrüfatı | 180 | 181 | 173 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 50 | 48 | 42 |
| İnformasiya və rabitə | 23 | 23 | 18 |
| Maliyyə və sığorta fəaliyyəti | 148 | 145 | 113 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 34 | 35 | 35 |
| Peşə, elmi və texniki fəaliyyət | 42 | 50 | 43 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 25 | 24 | 18 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminat | 11 | 11 | 11 |
| Təhsil | 1 | 1 | 1 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 5 | 5 | 6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 7 | 8 | 8 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 73 | 73 | 67 |

**Qeyd: 2009-2011-ci illərin məlumatları yeni İqtisadi Fəaliyyət Növləri Təsnifatının III versiyası əsasında verilmişdir.**

*Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı 2011*

Cədvəl 1 və 2-nin təhlili göstərir ki, əgər 1997-ci ildə bütünlüklə iqtisadiyyatda 755 səhmdar cəmiyyəti fəaliyyət göstərirdisə, bu rəqəm 2005-ci ildə 207.3% artaraq 1565 olmuş, 2010-cu ildə isə 247.4% artaraq 1860-a çatmışdır, lakin 2011-ci ildə onların sayı azalaraq 1850-ə çatmışdır və 2010-cu ilə nisbətən təxminən 29 % azalmışdır. Belə ki, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində səhmdar cəmiyyətlərinin sayı 2010-cu ildə 124, 2011-ci ildə isə azalaraq 118 olmuşdur və müvafiq olaraq 1997-ci ilə nisbətən 335.1 və 318.9 faiz artmışdır. Mədənçıxarma sənayesində isə 2006-cı ildən 2010-cu ilə qədər sayı dəyişməyərək 24 olmuşdur, 2011-ci ildə isə 25-ə çatmışdır.

***Cədvəl 2***

***Səhmdar cəmiyyətlərinin sayının 1997-ci ilə nisbətən dəyişməsi dinamikası (%- lə).***

| *Fəaliyyət növləri* | *2000* | *2001* | *2005* | *2006* | *2007* | *2008* | *2009* | *2010* | *2011* |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 125.8 | 154.7 | 207.3 | 218.8 | 227.0 | 236.9 | 244.5 | 247.4 | 218.5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 91.9 | 121.6 | 218.9 | 237.8 | 251.3 | 267.6 | 321.6 | 335.1 | 318.9 |
| Mədənçıxarma sənayesi | 100.0 | 216.7 | 388.3 | 400.0 | 400.0 | 400.0 | 400.0 | 400.0 | 416.6 |
| Emal sənayesi | 121.7 | 164.0 | 251.8 | 259.8 | 264.5 | 269.8 | 269.8 | 273.0 | 259.2 |
| Tikinti | 171.4 | 215.7 | 311.4 | 318.5 | 322.8 | 357.1 | 371.4 | 371.4 | 341.4 |
| Maliyyə və sığorta fəaliyyəti | 108.4 | 113.4 | 87.4 | 89.9 | 105.0 | 117.6 | 124.4 | 121.8 | 94.9 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 64.3 | 75.7 | 120.0 | 127.0 | 138.5 | 157.1 | 48.5 | 50.0 | 50.0 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2011*



Əgər emal sənayesində 1997-ci ildə səhmdar cəmiyyətlərinin sayı 189 idisə 2010-cu ildə 2.7 dəfə artaraq 516 olmuş, amma 2011-ci ildə azalaraq 490 olmuşdur. Tikinti sahəsində 1997-ci ilə nisbətən demək olar ki, hər il səhmdar cəmiyyətlərinin sayında artım baş vermişdir. Təkcə, son 2011-ci ildə sayı 260-dan 239-a düşmüşdür. Maliyyə və sığorta fəaliyyəti sahəsində 2005, 2006 və 2011-ci illərdə səhmdar cəmiyyətlərinin sayı azalmışdır. İndi bu sahədə 113 səhmdar cəmiyyəti fəaliyyət göstərir. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində isə son dövrlərdə fəaliyyət göstərən sahibkarlar müəssisələrini səhmdar cəmiyyəti təşkilati-hüquqi formasına üstünlük vermədiklərinə görə onların sayı 1997-ci ilə nisbətən 2011-ci ildə 2 dəfə azalmışdır.

İqtisadiyyatın real sektorundan fərqli olaraq maliyyə sektorunda səhmdar cəmiyyətləri kimi qurulmuş kredit təşkilatlarında korporativ idarəetmə məsələlərinə daha çox diqqət yetirilir.

İqtisadiyyatın real sektorunda fəaliyyət göstərən səhmdar cəmiyyətlərindən fərqli olaraq, korporativ idarəetmənin səmərəli sistemini yaratmaqla banklar əlavə çoxlu sayda spesifik problemlərlə üzləşirlər.

Birinci, mülkiyyətçi ilə menecerlər arasında fundamental əlaqə sənayedə və ya ticarətdən fərqli olaraq bank sektorunda daha mürəkkəbdir. Bu, nəzarətçi orqanların sərt tənzimləmə işlərini görməsindən və dövlət kapitalının yüksək olması nəticəsində yaranmış bazar münasibətlərinin ayrı-ayrı iştirakçıları arasında informasiyanın qeyri-mütənasib bölüşdürülməsindən irəli gəlir.

İkinci, maliyyə vasitəçiliyi funksiyasını aparmaq üçün banklara, qeyri-maliyyə şirkətlərinə nisbətən passivlərdə xüsusi vəsait payının az olması kifayətdir. Kreditlərin müddətliyi bank passivlərinin riskliyini müəyyənləşdirir, passiv və aktivlərin strukturundakı fərqliyini yaradır və bankları çoxlu sayda əmanətçilərin etibarından asılı edir. Bank biznesinin riskə meyilliyi əksər ölkələrdə depozitlərin məcburi sığortasının olması ilə dərinləşir (maliyyə ədəbiyyatında bu mənəvi risk adlanır: o, qorxulu hərəkətlərin yumşaldılması işlərinin gücləndirilməsi bu cür hərəkətlərin baş verməsi ehtimalını artıra birlər).

Respublikamızın bank sektorunda fəaliyyət göstərən kredit təşkilatların, təhlili deməyə imkan verir ki, bu təşkilatlarda korporativ idarəetmə və korporativ mədəniyyət Bazel komissiyası tərəfindən hazırlanan standartlar əsasında qurulmuşdur. Bunlara əməletmə isə səhmdarların hüquqlarının qorunmasına, onların kapitalının artmasına, daxili psixoloji mühitə müsbət təsir etməklə bərabər, həm də xarici mühitdə bank haqqında müsbət imicin formalaşmasına xidmət göstərir.

**5.Korporasiyaların divident siyasətinin əsas cəhətlərinin qiymətləndirməsi.**

Dividentlərin ölçüsünün müəyyənləşdirilməsi və onların ödənilməsi mexanizminin səhmdarlara aydınlığı və şəffaflığı korporativ idarəetmənin mükəmməl olmasından xəbər verir. Səhmdar cəmiyyətinin dividentlərin ölçüsü və ödənilməsi strategiyası haqqında informasiya həm mövcud olan səhmdarlara, həm də potensial səhmdarlara vacibdir. Çünki, bu informasiya onların səhmlərin alqısı və ya satqısı haqqında qəbul edilən qərara təsir göstərir.

*Cədvəl 3*

***2005-2010-cu illər üzrə dividentlərin və faizlərin ödənilməsi, min manat***

| *İllər üzrə* | *2005* | *2006* | *2007* | *2008* | *2009* | *2010* |
|---|---|---|---|---|---|---|
| Dividentlər və faizlərin ödənilməsi | 119295,6 | 154603,9 | 422490,0 | 411130,3 | 357239,5 | 460569,9 |
| Dividentlər və faizlərin 2005-ci ilə nisbəti (%-lə) | 100,0 | 129,57 | 354,15 | 344,63 | 299,45 | 386,07 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri.Bakı, 2011*

Cədvəl 3-də 2005-2010-cu illər üzrə Azərbaycanda dividentlərin və faizlərin ödənilməsi nümayiş etdirilmişdir. Buradan görünür ki, 2005-ci ilə nisbətən 2006-cı ildə dividentlərin və faizlərin ödənilməsində 29,57% artım müşahidə olunmuşdursa, 2007-ci ildə bu artım 3.5 dəfədən çox olmuşdur. Lakin 2008 və 2009-cu illərdə artım 2007-ci ilə nisbətən azalaraq müvafiq olaraq 3.4 və 3.0 dəfə təşkil etmişdir. 2010-cu ildə isə əksinə yenidən artım (389,07%) müşahidə olunmuşdur. 2008 və 2009-cu illərdə divident və faizlərin ödənilməsində enmənin əsas səbəbi Qlobal Maliyyə Böhranı olmuşdur. Bu illərdə Mərkəzi Bank tərəfindən uçot dərəcəsi aşağı salınmış və buna müvafiq olaraq kommersiya bankları depozitlərə görə ödədikləri faiz dərəcələrini aşağı salmışlar, həmçinin bank təşkilatları və ayrı-ayrı şirkətlər xalis mənfəətin əksər hissəsini mövcud vəziyyəti saxlamağa və inkişafa yönəldərək ya dividentlər ödəməmiş, ya da ki, cüzi miqdara ödəmişlər.

Səhmdar cəmiyyətin divident siyasəti gələcək inkişafla səhmdarların divident alma istəyi arasına maraqların tarazlığını əks etdirir.



Səhmdarlar gəlirlərini hansı formada almaq istədiklərini Direktorlar Şurası onların maraqlarını nəzərə almaqla müəyyən etməlidir. Buna görə Direktorlar Şurası müəyyən etməlidir ki, səhmdarları **kapitalda artım** və ya **divident** düşündürür.

Azərbaycanda yeni yaradılmış səhmdar cəmiyyətlərində, məsələn, "Kapital Bankda", "Holcim (Azərbaycan)" ASC-də, "Məişət Maye Qaz" ASC-də, "Qala maşınqayırma" ASC-də səhmdarlar ümumi razılığa gələrək kapitalda artım formasına gəlir almağa üstünlük vermişlər və onlara əlavə səhmlər verillmişdir.

Konkret səhmdar cəmiyyətində dividentlərin ölçüsünə, fikrimizcə, aşağıdakı dörd amil daha çox təsir göstərir:

1) səhmdarların kapitalın artımına və ya dividentlər almaya üstünlük verməsi (adətən xırda səhmdar dividentlərin alınmasına üstünlük verirlər);

2) cəmiyyətin investisiya imkanları (məsələn, məhdud investisiya imkanları olan cəmiyyət dividentlərin ödənilməsində, əksinə iqtisadiyyatın dinamik inkişaf edən sektorunda çalışan cəmiyyət mənfəətin iri hissəsinə biznesin inkişaf etdirilməsinə reinvestisiya etməyə maraqlıdır);

3) cəmiyyətin kapital strukturunun məqbul sayılması;

4) kənar maliyyələşmə mənbələrinin əlçatan olması və dəyəri.

Dividentlərin ödənilməsində sabitlik divident siyasətinin mühüm aspekti sayılır. Müəyyən zaman kəsiyində şirkətin pul vəsaitlərinin axını dəyişir və cəmiyyət ödəniləcək dividentlərin ölçüsünü dəyişməyə məcbur olur. Lakin əksər səhmdarlar, xüsusən də minaritar səhmdarlar dividentlərə gəlirlərinin mühüm mənbəyi kimi baxırlar və dividentlərin verilməməsi onların maliyyə vəziyyətinə neqativ təsir göstərir. Deməli, səhmdar cəmiyyətinə bu məsələdə "qızıl ortanı" tapmaq zəruridir. Dünya təcrübəsi göstərir ki, bu məsələdə xalis mənfəətin 30%-i dividentlərin ödənilməsinə, yerdə qalan hissəsini isə istehsalın genişləndirilməsinə yönəldilməsi ideal sayılır. Çünki, bu zaman səhmdar cəmiyyətinin öz fəaliyyətini genişləndirməyə kifayət qədər vəsaiti qalır.

**6.İşgüzar təşkilatlarda korporativ strategiyaların işlənməsi və istifadəsinin tədqiqi.**

Strateji görmə və niyyətin işlənməsi işgüzar təşkilatın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinin ilkin vəzifəsi kimi çıxış edir. Menecment təcrübəsi göstərir ki, strateji görmə şirkətin ali menecerlərinin fantaziya və təxəyyüllərinin məhsulu olaraq, onların gələcək inkişaf haqqında baxışlarını göstərir. O, şirkətə kim olmalarını, nə ilə məşğul olmalarını və nə etmək istədiklərini aydınlaşdırır. Strateji

görmənin müəyyən mənada maddiləşməsi isə təşkilatın niyyətidir. Niyyət (missiya) işgüzar təşkilatın təyinatını, yaşam məğzini və fəlsəfəsini müəyyən edir. Onlar olmadan şirkətin hansı mövqe qazanmaq istəyinə inam hissi az olur. Diversifikasiya olunmuş şirkətlərin niyyəti ümumi şəkildə ifadə olunur. Dar ixtisaslı şirkətlərdə isə niyyətdə konkret fəaliyyət növləri qeyd edilir.

Strateji görmə və niyyət hazırlandıqdan sonra isə təşkilatın məqsədləri ikinci vəzifə kimi hazırlanır. Məqsəd təşkilatın müəyyən sahədə nail olmaq istədiyi konkret vəziyyəti göstərir. Üçüncü vəzifə isə strategiyanın müəyyən edilməsidir. Deməli, strategiya məqsədə çatma vasitəsi, metodu kimi çıxış edir.

«Azərsun» kimi iri şirkətin niyyətində onun mövcud olmasının məğzi, təyinatı, cəmiyyətə, istehsalçılara və digər tərəfdaşlara nə ilə faydalı olması, unikallığı, rəqabət üstünlüyü və fəlsəfəsi əks olunmuşdur”.

“DəmirBank” ASC-nin Strateji Baxışından və Missiya Hesabatından irəli gələn aşağıdakı strateji məqsədləri müəyyən etmişdir:

– sosial yönümlü bank statusunun yaradılması və bu imicin qorunması;
– daxili bazarda maksimal iştirak və xarici bazara çıxış;
– effektiv və çevik təşkilati strukturun yaradılması və inkişafı;
– bankın investisiya cəlbediciliyinin artırılması.

Artıq göstərildi ki, strateji görmə və niyyət işləndikdən sonra məqsədlər müəyyənləşdirilir. Məsələn, Azərbaycan Beynəlxalq Bankın strateji hədəfləri aşağıdakılardır:

Müştərilərlə uzunmüddətli münasibətlər qurmaqla bankın məhsul və xidmətlərinin effektiv və maliyyə nöqteyi-nəzərindən səmərəli satışını həyata keçirən, bankın imicini yaxşılaşdıran yüksək səviyyəli, müasir standartlara cavab verən xidmət şəbəkəsini genişləndirmək və mövcud geniş müştəri bazasını qoruyub saxlamaq və həm kəmiyyətcə, həm də keyfiyyətcə inkişaf etdirmək. Müştəri bazasının genişləndirilməsinə, o cümlədən, müştərilərin biznesinin inkişafına dəstək hesabına nail olmaqdır.

Beləliklə, korporativ strategiyanın hazırlanması və reallaşdırılması işgüzar təşkilatın strateji baxışına, niyyətinə və məqsədlərinə nail olmaya xidmət edərək korporativ idarəetmənin keyfiyyətini artırmaqla, korporativ münasibətlər iştirakçılarının hüquqlarının qorunmasına və zənginləşməsinə yönəlmişdir.



**7.Korporativ mədəniyyətin müasir cəmiyyətin yeni çağırışlarına uyğunlaşdırılması məsələləri və korporativ davranışın etik aspektlərinin gücləndirilməsi yolları göstərilmişdir.**

Hal-hazırda, «korporativ mədəniyyət» təşkilat daxilində və təşkilatlar arasındakı olayları anlamaq üçün ən real vasitədir. O, çox mürəkkəb kateqoriyadır, amma bir çox elmi əsərlərdə buna təşkilatın imicinə və işçilərin fəlsəfəsinə istinadən, mənəvi-psixoloji və fəlsəfi kateqoriyalar çərçivəsində baxılır. Ölkədə son dövrlər anlamağa başlanmışdır ki, ayrı-ayrı müəssisələrdə korporativ mədəniyyətin səviyyəsi ürəkaçan deyildir, bunun nəticəsi kimi menecmentin səviyyəsi də aşağıdır və bu hallar bütünlüklə ölkədə sərmayə axınına və bu minvalla da sosial-iqtisadi inkişafa mənfi təsir edir.

Azərbaycanda işgüzar təşkilatların menecmentinin mühüm cəhəti odur ki, potensial kənar sərmayədarlara ehtiyatla və inamsızlıqla yanaşılır. Bu da korporasiyalarda yeni əsaslar üzrə formalaşan korporativ mədəniyyətə keçidə pozitiv təsir etmir. Ölkənin işgüzar təşkilatlarında qənaətbəxş korporativ mədəniyyətin yaradılmasında mühüm addım – mövcud mədəniyyətin, onun tarixinin, inkişaf səbəblərinin və sabitliyinin dərk edilməsidir. Başa düşdükdə ki, biz haradayıq və necə bu vəziyyətə düşmüşük, biz yeni korporativ mədəniyyətin komponentlərini yarada bilərik.

Fikrimizcə, bizim təhlil apardığımız təşkilatlarda korporativ mədəniyyəti təkmilləşdirmək üçün aşağıdakı tövsiyələrə diqqətlə yanaşmaq vacibdir:

1. Dolayı maddi həvəsləndirmə proqramlarını təkmilləşdirmək lazımdır (məsələn, tibbi xidmət, “hərəkət xidməti”- nəqliyyatla kömək və s.), yəni həvəsləndirmənin maddi və qeyri-maddi sistemindən istifadə etməklə heyətin hazırlanmış motivasiya formalarını tətbiq etmək;

2. Heyətin məlumatlandırılması standartının yaradılması (hansı məlumatın, hansı formada, hansı dövrilikdə, hansı kanallar üzrə və kim tərəfindən kollektivin nəzərinə çatdırılacaq). Bütün bunlar ona görə lazımdır ki, heyət rəhbərliyin planlarından və hərəkətlərindən xəbərdar olsun, bununla rəhbərlik və işçilər arasında etibarlı əlaqələr yaradır və əməkdaşlarda işin vacibliyi barəsində və onların bu işdə iştirakı hisslərini oyadır;

3. Kollektiv tədbirlərin təkmilləşdirilməsi kompleksinin hazırlanması, “istirahət proqramları” adlanan tədbirlərin hazırlanması (təbiət qoynuna birgə səyahətlərin və s. təşkil olunması).

Yaxşı qurulmuş korporativ idarəetmə – biznesi mənfəətli və maliyyə cəhətdən sabit edə bilməyən mülkiyyətçiləri və səhmdarları dəyişdirməklə müəssisənin restruktirizasiyasının aparılmasını zəruri edir. Müəssisənin səmərəli idarə edilməsində maraqlı olmayan səhmdarlar öz səhmlərini satırlar. Bu yolla səhmlər müəssisənin dəyərini maksimumlaşdırmağı, yüksək mənfəət əldə edə bilməyən və biznesin maliyyə sabitliyinə nail ola bilməyən investorların əlində cəmləşir. İnvestorların hüquqlarının az müdafiəsi zamanı müəssisənin səhmləri bazarda az hərəkət edir və insayderlərin (menecerlərin və onlarla əlaqəli strukturların) əlində təmərküzləşir. Bir tərəfdən mövcud səhmdarlar, hətta müəssisənin səmərəli işini qura bilmədikdə belə mülkiyyət və hakimiyyətdən əl çəkmirlər. Digər tərəfdən isə kənar investorların dəqiq maliyyə informasiyaları almadıqda və qoyduqları pul kapitalından gəlir götürməkdə inamları olmadıqda, müəssisənin səhmlərini almaqda maraqlı olmurlar. Habelə, əgər kənar səhmdarlar müəssisənin strategiyasının hazırlanmasında iştirak etmirlərsə, onda biznesin səmərəliliyinin yüksəlməsi ehtimalı daha da azalır. Ədalətli korporativ idarəetmə təcrübəsi şirkət tərəfindən korporativ münasibətlərin bütün tərəflərinin maraqlarını nəzərə almağa xidmət göstərir. Digər tərəfdən, şirkətin rəhbərliyi həm şirkətin, həm də səhmdarların qarşısında məsuliyyət daşıyır və hesabat verir.

Yuxarıda dediklərimiz bir daha sübut edir ki, korporativ idarəetmə birbaşa işgüzar təşkilatın rəqabətqabiliyyətliliyinin artmasına yönələn mücərrəd hakim bacarıqdır. Əgər müəssisə uzun müddət fəaliyyət göstərmək istəyirsə, hökmən korporativ idarəetmənin keyfiyyətinin artırılmasına çalışmalıdır. Yadda saxlamaq lazımdır ki, korporativ idarəetmənin mükəmməlliyi əlavə sərmayələrin cəlb olunması, səhmlərin bazar məzənnəsinin və şirkətin imicinin yüksəlməsi yolu ilə müəssisənin qudvilini artırmaqla onun rəqabətqabiliyyətliliyinə müsbət təsir göstərir.

Dissertasiya işinin mövzüsu ilə bağlı müəllifin aşağdakı məqalələri dərc edilmişdir.

1. Vəliyev A.C. Azərbaycan Kommersiya Banklarında Korporativ idarəetmənin yeri və rolu. Gənc Alimlərin I Respublika İnnovativ İdeya Yarmarkası (konfrans). Bakı 18-23 noyabr 2010-cu il. 0.6 ç.v., səh. 366 – 370.

2. Vəliyev A.C. Korporativ strategiyanın hazırlanması xüsusiyyətləri. Gənc Alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası (konfrans). Bakı 25-27 iyul 2012-ci il. 0.6 ç.v., səh. 206 – 210.



3 Vəliyev A.C. Təşkilatlarda korporativ mədəniyyətin yüksəldilməsi istiqamətləri. Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Korporasiya nəşriyyatı. Bakı 27-28 iyun 2012-ci il. 0.6 ç.v., səh. 1008 – 1010.

4. Vəliyev A.C. Korporativ strategiyanın hazırlanması xüsusiyyətləri. Bakı Biznes Universiteti. Audit jurnalı. Bakı №2/2012. 0.6 ç.v., səh. 111 - 115.

5. Vəliyev A.C. İşgüzar təşkilatlarda korporativ mədəniyyətin yüksəldilməsi istiqamətləri. Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu. Elmi əsərlər. Bakı № 2/2012. 0.8 ç.v., səh. 75 –81.

6. Vəliyev A.C. Qeyri-mükəmməl korporativ idarəetmənin fəsadları. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi əsərlər. Bakı №3/2012. səh.72 – 77.

7. Валиев А.Дж. Э.Г.Мамедова, Исследования проблематики корпоративного управления в Азербайджане. Вісник ДонНУЕТ №3, Украина. 2012-ci il, 0,7 ç.v., стр. 113 – 118.

8. Валиев А.Дж. Усовершенствование корпоративного управления в акционерных обществах Азербайджанской Республики на примере зарубежного опыта. Вісник ДонНУЕТ Украина: №3,2012-ci il,0,7ç.v.,стр. 79-84.

9. Валиев А.Дж. Особенности формирования и развития корпораций в странах постсоветского пространства. Вестник Экономической интеграции. Москва: № 8, 2012, 0,8 ç.v., стр. 135 – 140.

10. Vəliyev A.C. Korporativ mülkiyyətin təkrar istehsalının sosial-iqtisadi mexanizminin əsas ünsürləri. Bakı Biznes Universiteti. Audit jurnalı. Bakı №1,2013. 0.6 ç.v., səh. 112 – 119.

11. Vəliyev A.C. Şirkətin divident siyasəti – korporativ idarəetmə sisteminin əsas aləti kimi. «Azərittifaq» Azərbaycan Korporasiya Universiteti. Korporasiya elmi-nəzəri jurnal. №4(27), 2012, 0.8 ç.v., səh. 129 – 135.

12. Vəliyev A.C. Korporativ mülkiyyətin müasir auditi. Monoqrafiya. Bakı Biznes Universiteti. 2012-ci il, 11 ç.v., səh. 3 – 279.

13. Vəliyev A.C. İxtisas fənni üzrə proqram təminatı. Bakı Biznes Universiteti. Bakı 2009-cu il,1,0 ç.v., səh. 3 – 25.

14. Vəliyev A.C. Əmtəəşünaslığın əsasları fənni üzrə proqram. Bakı Biznes Universiteti. Bakı, 2011-ci il, 1,0 ç.v., səh. 3 – 26.

15. Vəliyev A.C. Standarlaşdırma və keyfiyyətin idarə edilməsi fənni üzrə proqram. Bakı Biznes Universiteti. Bakı, 2011-ci il, 3,5 ç.v., səh. 3 – 86.

**16.** Vəliyev A.C. Beynəlxalq marketinq fənni üzrə proqram. Bakı Biznes Universiteti. Bakı : 2012-ci il, 1,5 ç.v., səh. 3 – 37.

**17.** Vəliyev A.C. Standartlaşdırma və Sertifikatlaşdırma fənni üzrə proqram. Bakı Biznes Universiteti. Bakı: 2012-ci il,1,7 ç.v., səh. 3 – 41.



**Велиев Анар Джумшуд оглы**

**Корпоративное управление и проблемы повышения конкурентоспособности деловых организаций**

## РЕЗЮМЕ

Развитие отдельных деловых организаций и их успешное конкурирование требует от собственников и высшего менеджмента разработки эффективных инструментов и механизмов управления бизнесом, сочетания интересов между акционерами и другими заинтересованными лицами. Все эти вопросы входят в компетенцию корпоративного управления, актуальность которой значительно возросла в последнее десятилетие и в нашей стране. Качество корпоративного управления прямым образом влияет на рыночный курс акций, стоимость фирмы, привлечение новых инвестиций и на имидж компании, тем самым создает необходимую базу повышения конкурентоспособности деловых организаций. Изучение этих и других вопросов имеет большую научную и практическую значимость, подтверждает актуальность темы исследования.

Цель данного исследования заключается в систематизации и рационализации современных научных подходов и концепций повышения конкурентоспособности деловых организаций и всей страны в рамках национальных традиций на основе организации использования механизмов совершенного корпоративного управления.

Научная новизна диссертационной работы сводится к тому, что в современной Азербайджанской действительности впервые определено место и роль корпоративного управления в повышении конкурентоспособности отдельных деловых организаций и страны в целом.

**Veliyev Anar Dzhumshud**

**Corpotare governance and the problems on increasing of the rivalry capacities of business enterprices**

## SUMMARY

In terms of uncertainty and unpredictability for development of separate business organizations and their successful competition proprietors and top management are required to develop effective instruments and mechanisms of business management, as well as to harmonize the interests of shareholders and other interested parties. All these issues fall within the competence of a corporate management, topicality of which has also significantly increased in our country over the last decade. Quality of the corporate management directly influences the market rate of shares, value of firm, attracting new investments, as well as the company image, thus establishes the necessary basis in competitiveness recovery of business organizations. Study of these and other issues has great scientific and practical importance and justifies the urgency of the research topic.

Purpose of this research consists in systematization and rationalization of modern scientific approaches and conceptions of the competitiveness recovery of business organizations and the whole country within the frames of national traditions on the basis of organization of exploitation of mechanisms for the perfect corporate management.

Scientific novelty of the thesis work comes down to the fact that place and role of corporate management in the competitiveness recovery of business organizations and the whole country was determined in the present-day reality of Azerbaijan for the first time



*Kağız formatı 60x84 1/16.*
*Həcmi 1,5 ç.v. Sayı 100.*

*"İqtisad Universiteti" Nəşriyyatı*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6.*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**
**НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ**
**ЭКОНОМИЧЕСКИХ ИССЛЕДОВАНИЙ**

**На правах рукописи**

**ВЕЛИЕВ АНАР ДЖУМШУД ОГЛЫ**

# КОРПОРАТИВНОЕ УПРАВЛЕНИЕ И ПРОБЛЕМЫ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ДЕЛОВЫХ ОРГАНИЗАЦИЙ

**Специальность:** 5304.01 **-** Виды экономической деятельности

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по экономике

**Баку - 2013**